**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü Emin Quliyevin 2009-cu il dekabrın 23- də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş İbrəhimov Şirzad Mirzə oğlunun və digərlərinin 7 yanvar 2010-cu il tarixli 579 saylı müraciətinin araşdırılmasına dair**

# R Ə Y İ

Bakı şəhəri 10 dekabr 2010-cu il, saat 11.00

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 50 saylı Qobustan-Xızı-Quba seçki dairəsi üzrə Cəyirli bələdiyyəsinin üzvlüyünə namizədlər İbrəhimov Şirzad Mirzə oğlu, Məmmədov Asəf Əlifxan oğlu, Cəbrayilov Sarvan Humsu oğlu və Həmidov Yasər Əlyusif oğlu 7 yanvar 2010-cu il tarixdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, Mərkəzi Seçki Komissiyasının Qərarı ilə aidiyyəti üzrə araşdırılması üçün 50 saylı Qobustan-Xızı-Quba seçki dairəsinə göndərilmiş 26 dekabr 2009-cu il tarixli 122 saylı müraciətlərinə müvafiq dairə seçki komissiyası tərəfindən baxılması zamanı qanun pozuntularına yol verildiyini bildirərək, qanuna müvafiq olaraq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 112, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimat" a uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

Araşdırma zamanı müvafiq dairə seçki komissiyasının sədri Rəfiyev Heybət Mirzə oğlundan və dairə seçki komissiyasının katibi İsmayılov Famil İsmayıl oğlundan izahatlar və şikayətin dairə seçki komissiyasında araşdırılması ilə bağlı tərtib edilmiş sənədlər alınmışdır. Verilən izahatlardan görünür ki, Mərkəzi Seçki Komissiyasının qərarı ilə araşdırılması üçün göndərilmiş adları yuxarıda qeyd edilən bələdiyyə üzvlüyünə namizədlərin şikayət ərizəsi 50 saylı Qobustan-Xızı-Quba seçki dairəsinin dairə seçki komissiyasında 2 yanvar 2010-cu il tarixdə qeydə alınmışdır. Bu barədə, elə həmin gün, dairə seçki komissiyasının iclası keçirilərək, qərar qəbul edilmişdir. Sonra şikayətçilərlə telefon əlaqəsi yaradılaraq, onlara səslərin yenidən hesablanmasının vaxtı və yeri barəsində məlumat verilmişdir. Lakin şikayətçilər səslərin yenidən hesablanmasında iştirakdan imtina etmişlər. Səslərin yenidən hesablanması nəticəsində dairə seçki komissiyası 2 yanvar 2010-cu il tarixdə 6 saylı qərar qəbul edərək ərizəçilərin şikayətini təmin

etməmişdir. Qəbul edilən qərarın surəti ərizəçilərə 2 yanvar 2010-cu il tarixdə saat 16.00-da təqdim olunmuşdur.

Araşdırma nəticəsində 50 saylı Qobustan-Xızı-Quba seçki dairəsinin dairə seçki komissiyası tərəfindən bələdiyyə üzvlüyünə namizəd İbrəhimov Şirzad və digərlərinin şikayətinin araşdırılması və bununla bağlı qərarın verilməsi zamanı Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112.1-ci maddələrinin, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın, habelə dövlət hakimiyyəti orqanlarında kargüzarlıq qaydalarının aparılması ilə bağlı prosedur qaydalarının pozulduğu müəyyən olunmuşdur.

Belə ki, 50 saylı Qobustan-Xızı-Quba seçki dairəsinin 5 və 19 saylı seçki məntəqələri üzrə səslərin yenidən sayılması haqqında müvafiq dairə seçki komissiyasının 2 yanvar 2010-cu il tarixli 5 saylı qərarının təsviri hissəsi olmadığından, bu qərarın hansı hüquqi və faktiki əsaslara qəbul edildiyini aydınlaşdırmaq mümkün deyil. Eyni zamanda səslərin yenidən hesablanmasının nəticələri və şikayətə baxılması haqqında dairə seçki komissiyasının 2 yanvar 2010-cu il tarixli iclasının yeri və vaxtı barəsində də şikayətçilərdən heç birinə məlumat verilməmişdir. Beləliklə də, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-1.7-ci maddəsinin tələblərinə zidd olaraq, şikayətçilər öz iddialarını təsdiq edə biləcək dəlil və sübutlarının olduğu təqdirdə, onları təqdim etmək imkanından məhrum olunmuşlar. Həmin iclasda qəbul edilmiş dairə seçki komissiyasının 2 yanvar 2010-cu il tarixli 6 saylı qərarının özündə isə şikayətin təmin edilməməsinin əsasları tam və dəqiq göstərilməmişdir. Bütün bunlar şikayətçilərin dairə seçki komissiyasının qərarı ilə bağlı tələblərinin qanuni və əsaslı olmasına, həmçinin müvafiq dairə seçki komissiyası sədrinin dairə seçki komissiyasının işinin seçki qanunvericiliyinə, dövlət hakimiyyəti orqanlarında, idarə, müəssisə və təşkilatlarda kargüzarlıq qaydalarına uyğun şəkildə təşkil edilməsində ciddi pozuntulara yol verdiyini göstərir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və adıçəkilən Təlimatın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m**:

1. Vətəndaş İbrəhimov Şirzad Mirzə oğlunun və digərlərinin 7 yanvar 2010-cu il tarixli 579 saylı müraciəti təmin edilərək, 50 saylı Qobustan-Xızı-Quba seçki dairəsinin dairə seçki komissiyasının 2 yanvar 2010-cu il tarixli 6 saylı qərarı ləğv edilsin.
2. Vətəndaş İbrəhimov Şirzad Mirzə oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 127 saylı müraciətinə yenidən baxılması 50 saylı Qobustan-Xızı-Quba seçki dairəsinin dairə seçki komissiyasına həvalə edilsin.

3. 50 saylı Qobustan-Xızı-Quba seçki dairəsi dairə seçki komissiyasının sədri Rəfiyev Heybət Mirzə oğlunun tutduğu vəzifəyə uyğunsuzluğu müəyyən edilsin.

4. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin (Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin) və surəti şikayətçiyə göndərilsin.

Azərbaycan Respublikası
Mərkəzi Seçk Komissiyası
nəzdində ekspert qrupunun üzvü Emin Quliyev